

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 8 (23.170)

*12 yanvar 2019-cu il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Prezident İlham Əliyev 2018-ci ilin ölkəmiz üçün uğurlu olduğunu, dünyada və bölgədə gedən mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik inkişaf etdiyini bildirib. Dövlətimizin başçısı ölkəmizdə ictimai-siyasi vəziyyətin sabit olduğunu, xarici siyasət sahəsində də bir sıra uğurların əldə edildiyini bildirib.

Sonda Prezident İlham Əliyev böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyini nəzərə alaraq 2019-cu ili "Nəsimi İli" elan etdiyini bildirib.

## Naxçıvan Muxtar Respublikasının bir sıra birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. Polad Vəli oğlu Həsənov Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi və həmin məhkəmənin sədri təyin edilsin.

2. Qabil Neymət oğlu Məmmədov Naxçıvan Şəhər Məhkəməsinin hakimi və həmin məhkəmənin sədri təyin edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 11 yanvar 2019-cu il*

# Müasir NAXÇIVAN

***5 minillik şəhər mədəniyyətinə malik olan Naxçıvan bəşər tarixinə misilsiz töhfələr vermiş, dünyanın bəzəyi –"Nəqşi-cahan" adlandırılmışdır. Azərbaycanın bu qədim diyarı tarixin müxtəlif dövrlərində yadellilərin hücumlarına, qanlı döyüş meydanına çevrilsə də, ayaqda durmağı bacarmış, mövcudluğunu qoruyub saxlamışdır. Ötən əsrin sonlarında xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti, misilsiz dühası sayəsində Naxçıvan Muxtar Respublikası bütün çətinliklərə sinə gərərək yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.***

Ulu öndərin quruculuq xəttinin davamı sonrakı dövrlərdə də muxtar respublikanın inkişafını təmin etmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvan hərtərəfli inkişafa qovuşmuşdur. Ötən dövrdə ulu öndərin siyasi kursunun uğurla davam etdirilməsi, əzmkarlıq, siyasi iradə və ən əsası yüksək vətənpərvərlik nümunəsi blokada şəraitində də hərtərəfli inkişafın mümkünlüyünü göstərdi. Bu gün inkişaf etdirilmiş və əsaslı şəkildə yenidən qurulmuş Naxçıvan Muxtar Respublikası qurucu RƏHBƏRİN əsəri, bugünkü və gələcək nəsillərə ən böyük töhfəsidir.



Muxtar respublikada inkişaf mərhələ-mərhələ, planlı şəkildə, düşünülmüş formada və perspektivə hesablanaraq həyata keçirilir. Hər şeydən əvvəl təhlükəsizliyin təmin olunması üçün təxirəsalınmaz addımlar atılmışdır. Nizam-intizam gücləndirilmiş, sənaye və kənd təsərrüfatının inkişafı üçün sahibkarlığa geniş meydan verilmiş, təhsil, səhiyyə və digər sosial sahələrin inkişafı təmin olunmuşdur. Genişmiqyaslı tikinti-quruculuq işlərinə başlanılmış, şəhər və kəndlər abadlaşdırılmış, yeni yollar, körpülər salınmış, məktəblər, xəstəxanalar idman kompleksləri istifadəyə verilmişdir. Bütün yaşayış məntəqələrində müasir standartlara uyğun infrastruktur layihələri həyata keçirilmişdir. Belə layihələr kəndlə şəhər arasında fərqi ortadan qaldırmışdır. Görülmüş işlərin nəticəsidir ki, artıq bu gün dağ-sərhəd kəndlərində yaşayan sakinlər də şəhərtipli səhiyyə və mədəniyyət müəssisələrindən istifadə edir, yüksəksürətli internet xidmətlərindən yararlanır, rayon mərkəzləri və ya paytaxt Naxçıvan şəhərinə rahat yollarla gedib-gəlirlər. Kənd yaşayış məntəqələrində yaradılmış yeni xidmət mərkəzləri əhalinin keyfiyyətli yerli ərzaq və təsərrüfat malları ilə təminatına, müxtəlif iaşə xidmətlərindən istifadəsinə geniş imkanlar açıb.

1995-ci ildən başlayaraq muxtar respublikada həyata keçirilən islahatların mərkəzində təhsil infrastrukturunun müasirləşdirilməsi dayanıb, elm və təhsil quruculuğu inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilib. Ötən dövrdə müasir informasiya texnologiyaları ilə təmin olunmuş 200-dən artıq məktəb binası istifadəyə verilib, orta ixtisas və ali təhsil müəssisələri üçün yeni tədris korpusları tikilib, 2 universitet şəhərciyi salınıb, peşə məktəbləri yaradılıb. Tədrisdə yeni texnologiyalar tətbiq olunub, 600-dən artıq elektron lövhə quraşdırılmış siniflər, internetə çıxışı olan 7 minə yaxın kompüter, müasir laboratoriyalar və zəngin fonda malik kitabxanalar şagird və tələbələrin istifadəsinə verilib. Məqsəd vətənpərvər və təhsilli gənc nəsil yetişdirməkdir. Buna həm təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlərlə, həm də gənclərin fəaliyyətinin dəstəklənməsi yolu ilə nail olunur. İctimai-siyasi, iqtisadi-mədəni həyatda gənclərin fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi diqqət mərkəzində saxlanılır. Gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, gənclərin həyat şəraitinin, xüsusilə onların mənzil təminatının yaxşılaşdırılması göstərilən qayğının daha bir ifadəsidir.

Ötən əsrin 90-cı illərində muxtar respublikanın ən böyük problemi onun təhlükəsizliyi ilə bağlı idi. Həmin dövrdə ulu öndər Heydər Əliyevin qətiyyəti, nüfuzu və naxçıvanlıların onun ətrafında sıx birləşməsi nəticəsində qədim diyarın ərazi bütövlüyü qorunub saxlanıldı. Sonrakı illərdə isə bu missiyanı güclü ordu həyata keçirməli idi. Muxtar respublikada təməli ulu öndərimiz tərəfindən qoyulan xalq-ordu birliyi ötən dövrdə daha da möhkəmləndirilmiş, ordu quruculuğu sahəsində görülən işlər yeni mərhələyə qədəm qoymuş, təhlükəsizliyin qarantı olan Əlahiddə Ümumqoşun Ordu yaradılmışdır. Ötən dövrdə bu ordu ən müasir silah və texnikalarla təmin olunmuş, şəxsi heyətin peşəkarlığı dəfələrlə artırılmışdır. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin nəticəsidir ki, Əlahiddə Ümumqoşun Ordu ötən il işğal altında olan Şərur rayonunun Günnüt kəndinə və ətraf ərazilərə, mühüm geostrateji yüksəkliklərə nəzarəti bərpa etmişdir.

Naxçıvanın bugünkü inkişafı, ağ günlərə çıxması asan başa gəlməyib. Əvvəllər enerji qıtlığından əziyyət çəkən, ciddi problemlər məngənəsində sıxılıb qalan muxtar respublikanın ötən dövrdə əldə etdiyi ən böyük uğurlardan biri də enerji təhlükəsizliyinin təmin edilməsidir. Bir zamanlar enerjini idxal hesabına əldə edən Naxçıvan Muxtar Respublikası indi enerji ixracatçısına çevrilib. 2006-cı ilin dekabrında Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, 2010-cu ilin oktyabrında Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, 2014-cü ildə Şərur rayonu ərazisində 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları istismara verilmiş, 2017-ci il yanvar ayının 11-də isə Ordubad Su Elektrik Stansiyasının təməli qoyulmuşdur. Bundan əlavə, 2015-ci ildə 20 meqavat gücündə Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilməsi və 2017-ci ildə stansiyanın gücünün daha 2 meqavat artırılması Naxçıvanın etibarlı enerji təminatına səbəb olub. Bu gün ölkə üzrə Günəş Elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 78 faizdən çoxu muxtar respublikanın payına düşür. Eyni zamanda Naxçıvan Muxtar Respublikasında elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpaolunan enerji mənbələri hesabına ödənilir ki, bu da inkişaf etmiş Avropa ölkələri üçün çox nadir göstərici hesab edilir.

Enerji təhlükəsizliyinin təmin olunması muxtar respublikada sənayenin inkişafına da əsaslı zəmin yaradıb. Vaxtilə ümumi daxili məhsul istehsalında aqrar sahənin ağırlığı təşkil etdiyi muxtar respublikada bu gün sənaye-aqrar kompleksi formalaşıb. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 20 il bundan əvvəl 15 növdə məhsula olan tələbatı yerli imkanlar hesabına ödənilən Naxçıvan Muxtar Respublikasında hazırda 350 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Kənd təsərrüfatının inkişafı üçün də geniş imkanlar açılıb, fermer və torpaq mülkiyyətçiləri hərtərəfli qayğı ilə əhatə olunub. Yerli istehsalın həcmi artırılıb, sağlam rəqabət mühiti yaradılıb. Əgər əvvəllər Naxçıvanda əkilən ərazilər məhdud ölçüdə idisə, indi bu ərazilər muxtar respublikanın böyük bir hissəsini əhatə edir. Min hektarlarla torpaq sahələrinin əkin dövriyyəsinə qaytılması, mütərəqqi suvarma şəbəkələrinin qurulması, qəbul edilən dövlət proqramlarının uğurlu icrası kənd təsərrüfatı məhsullarının artımına imkan yaradıb. Suvarılan torpaqların sahəsi dəfələrlə genişlənib, texnika və gübrə təminatı ən yüksək səviyyəyə çatıb. Naxçıvanda kənd təsərrüfatı əhalinin əsas məşğuliyyət sahəsinə çevrilib. Nəticədə, fərdi təsərrüfatların sayı çoxalıb, onlar inkişaf edərək çoxsaylı ailə təsərrüfatlarına çevriliblər.

Naxçıvan Muxtar Respublikası bu gün yaşıllıqlar, gülkarlıqlar diyarıdır. Ərazisinin 14 faizindən çoxu yaşıllıqdır. Bütün bu yaşıllıqlar torpağını sevən naxçıvanlıların zəhmətinin bəhrəsidir. Keçirilən ümumxalq iməciliklərinin nəticəsidir. Nahaq yerə demirlər ki, vaxtilə torpaqları cadar-cadar olmuş Naxçıvan indi canlı təbiət abidəsi, təbiət muzeyidir. Bunlar insan əlinin, insan zəkasının məhsuludur.

Sabitlik və inkişaf müasir Naxçıvanın əsas göstəricisidir. Burada cinayət hadisələri, demək olar ki, qeydə alınmır. İnsanlar rahat və firavan yaşayırlar. Sabitliyin bir göstəricisi də söz, fikir və mətbuat azadlığının təmin edilməsidir. İnsanlara sərbəst yaradıcılıq imkanları yaradılıb. Teleradiolar və qəzetlər üçün müasir maddi-texniki baza istifadəyə verilib, yeni informasiya agentliyi fəaliyyətə başlayıb, media nümayəndələri hərtərəfli qayğı ilə əhatə olunub.

Muxtar respublikada görülən bütün işlərin mərkəzində insan amili dayanır. İnsanların rahat yaşayışı, məşğulluğunun təmin olunması qarşıda duran əsas vəzifələrdir. Bu sahədə dövlət proqramı icra olunur, gənc ailələrin sosial müdafiəsi gücləndirilir, sahibkarlığa diqqət artırılır, fiziki imkanları məhdud insanların sosial layihələr çərçivəsində məşğulluğu təmin edilir.

Bu gün muxtar respublikada yeni sahibkarlar sinfi formalaşıb. Özəl bölmənin inkişafına hərtərəfli qayğı göstərilir. Ümumi daxili məhsul istehsalında bu sahənin payı artır, hər il yeni istehsal müəssisələri fəaliyyətə başlayır. Dövlət sahibkara güzəştli kreditlər verir, şərait yaradır, daxili bazarı qoruyur. Sahibkar da keyfiyyətli məhsul istehsal edərək tələbatın ödənilməsinə və iqtisadi inkişafa öz töhfəsini verir.

İnsan sağlamlığı hər bir ölkənin inkişafında qarşıda duran əsas öhdəlikdir. Çünki sağlam insan sağlam cəmiyyət, inkişaf edən dövlət deməkdir. Muxtar respublikada insanların sağlamlıqlarının qorunması istiqamətində kompleks tədbirlər görülür. Son illər burada 200-dən çox tibb müəssisəsi istifadəyə verilmiş, ixtisaslı tibbi kadrların hazırlanmasına başlanılmışdır. Naxçıvan Muxtar Respublika Xəstəxanası, Doğum Mərkəzi, Uşaq Xəstəxanası, Diaqnostika-Müalicə Mərkəzi, Psixi və Ağciyər Xəstəlikləri dispanserləri, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzləri, rayon mərkəzi xəstəxanaları, kəndlərdəki sahə xəstəxanaları və həkim ambulatoriyaları ən müasir tibbi avadanlıqlar və yeni binalarla təmin olunmuş, əhalinin müalicə və müayinəsi üçün bütün şərait yaradılmışdır.

*Ardı 2-ci səhifədə*



Muxtar respublikanın hərtərəfli inkişafından danışarkən bu qədim diyarın tarixi və zəngin mədəni irsindən bəhs etməmək mümkün deyil. Tarixi çox qədimlərə söykənən Naxçıvanda bir vaxtlar milli və mənəvi dəyərlərimizi əks etdirən abidələrimiz dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Ali Məclis Sədrinin qayğısı ilə ötən dövrdə muxtar respublikada 1200-dən çox tarixi abidə pasportlaşdırılıb, 70-dən artıq dünya əhəmiyyətli abidə bərpa olunaraq Azərbaycan xalqına qaytarılıb. Ali Məclis Sədrinin sərəncamına uyğun olaraq 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun keçirilməsi Naxçıvan tarixinin öyrənilməsi baxımından əhəmiyyətli olmuş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə keçirilən beynəlxalq konfrans və simpoziumlar qədim tariximizin, mədəniyyətimizin və təbii sərvətlərimizin öyrənilməsində mühüm rol oynamışdır. Naxçıvan tarixinə, arxeologiyasına, etnoqrafiyasına və folkloruna dair tədqiqatlar aparılmış, müxtəlif mövzularda kitab, monoqrafiya, dərslik və elmi məqalələr nəşr edilmişdir. Naxçıvanın Duzdağ mədəniyyətinin öyrənilməsi sahəsində də kompleks tədbirlər görülmüş, Duzdağda beynəlxalq arxeoloji ekspedisiya aparılmış, xeyli sayda maddi-mədəniyyət nümunələri aşkar edilmiş, mühüm elmi nəticələr əldə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamına əsasən Naxçıvan Duz Muzeyinin yaradılması xalqımızın tarixinə, mədəniyyətinə, milli-mədəni dəyərlərinə göstərilən böyük qayğının ifadəsidir.

Ali Məclis Sədrinin sərəncamları ilə ötən dövrdə görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin, ictimai xadim və publisist Məhəmməd ağa Şahtaxtlının, dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin, şair-dramaturq İslam Səfərlinin, Xalq şairi Məmməd Arazın, pedaqoq və elm xadimi Əziz Şərifin, publisist və pedaqoq Eynəli bəy Sultanovun, görkəmli rəssamlar Bəhruz Kəngərlinin, Şamil Qazıyevin və İbrahim Səfiyevin, böyük mütəfəkkir Nemətullah Naxçıvaninin ədəbi-bədii, elmi-publisistik və maarifçilik fəaliyyətləri öyrənilmiş, həyatlarına ikinci həyat qatılmışdır.

Naxçıvanda xalqımızın tarixi-mədəni irsinin qorunub saxlanılması sahəsində görülən işlərin nəticəsidir ki, minillik tarixi olan mədəni irsimiz beynəlxalq səviyyədə tanıdılır. Ali Məclis Sədrinin tapşırığına əsasən 2018-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi yallı sənəti ilə bağlı tədqiqatlar aparmış, bu irsin YUNESKO səviyyəsində qorunması ilə bağlı tədbirlər həyata keçirmiş, "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanıb aidiyyəti üzrə təqdim olunmuşdur. 2018-ci ilin 26 noyabr-1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilən qərarla "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir.

Ümumilikdə, bütün sahələr üzrə əldə edilən uğurlar Azərbaycanın Naxçıvan Muxtar Respublikasının nüfuzunun getdikcə yüksəlməsinə öz töhfəsini verir, hər il yüz minlərlə turist Naxçıvana gəlir, qədim diyarın zəngin tarixi və mədəni irsini öyrənirlər. Səbəbsiz deyil ki, Naxçıvan beynəlxalq idman tədbirlərinə, elmi konfranslara, festivallara ev sahibliyi edir. 2018-ci il muxtar respublika üçün daha əlamətdar olub. Belə ki, ötən il Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı seçilib, Naxçıvanda "Avropa günləri", Türk Şurası Gənc Liderlərinin ilk forumu, eləcə də TÜRKSOY-un "Türk-İslam əxlaq fəlsəfəsinin qurucu memarları: Türküstandan Anadoluya irfan məktəbinin alimləri" mövzusunda ilk dəfə beynəlxalq konfransı keçirilib.

Bir sözlə, Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlər dayanıqlı inkişafı təmin etmişdir. Ötən dövrdə muxtar respublikada bütün makroiqtisadi göstəricilər üzrə artım əldə edilmiş, 2018-ci ildə ümumi daxili məhsulun həcmi 1995-ci ilə nisbətən 63 dəfə, sənaye məhsulunun həcmi 108 dəfə, əsas kapitala yönəldilən investisiyalar 333 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 12 dəfə, nəqliyyat sektorunda yük daşınması 26 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 122 dəfə, pərakəndə əmtəə dövriyyəsi 46 dəfə, ixracın həcmi 219 dəfə, əhalinin gəlirləri isə 59 dəfə artmışdır.

Naxçıvanın iqtisadi potensialının durmadan artmasının nəticəsidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club"un 2018-ci ildə ölkəmizin 10 iqtisadi regionu üzrə hazırladığı illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikası sosial-demoqrafik göstərici, sosial-iqtisadi vəziyyət, işgüzar mühit, infrastruktur, rifahlıq və kənd təsərrüfatı sahələri olmaqla, ümumilikdə, 18 parametr üzrə ən yüksək bal toplayaraq ikinci dəfə lider olmuşdur.

Düşmən qarşısında alınmaz qalaya çevrilmiş müasir Naxçıvanın hərtərəfli inkişafı müstəqillik dövrünün qiymətli quruculuq və dövlətçilik salnaməsidir. Bu gün muxtar respublikada görülən işləri, sosial-iqtisadi, elmi-mədəni, tikinti, sənaye və kənd təsərrüfatı, həmçinin turizm, nəqliyyat və kommunikasiya, infrastruktur sahələrində qazanılan uğurları hər kəs görür və qiymətləndirir. İndi bu qədim diyara yolu düşən yerli və xarici qonaqlar da muxtar respublikanın bütün sahələr üzrə nümunə gücündə olduğunu söyləyirlər. Bu inkişafın, sabitliyin və yüksək rifahın bir səbəbi var. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu, məni çox sevindirir. Çünki bu, Heydər Əliyev siyasətinin təntənəsidir".***

**"Şərq qapısı"**

# Ötən ilin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***Yanvarın 11-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasından irəli gələn vəzifələr, 2018-ci il ərzində Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən görülmüş işlər müzakirə olunub.***

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq bildirib ki, 1918-ci il 1 oktyabr tarixdən fəaliyyətə başlamış milli prokurorluq orqanlarının inkişafı, dünya standartlarına uyğun, müasir tələblərə cavab verən prokurorluq sistemi kimi formalaşması ulu öndər Heydər Əliyevin adı və həyata keçirdiyi islahatlarla bağlıdır. Hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qayğısı nəticəsində muxtar respublikanın prokurorluq orqanlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılıb.

Diqqətə çatdırılıb ki, 2018-ci ilin oktyabr ayında prokurorluq orqanlarının yaradılmasının 100 illik yubileyi təntənəli şəkildə qeyd edilib, dövlətçilik ideyalarına sadiqliyi və xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun bir qrup əməkdaşı Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 sentyabr tarixli Sərəncamı ilə orden və medallarla təltif edilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının tələbələri 2018-ci ilin aprel ayında Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olub, onlara kitabxana fondu, prokurorluq orqanlarında müraciətlərin baxılması qaydaları, cinayət işinin istintaqı zamanı aparılan istintaq hərəkətləri, ittihamı elanetmə qaydaları və ittihamın müdafiəsi, istintaq hərəkətlərinin sənədləşdirilməsi haqqında məlumatlar verilib və prokurorluğun fəaliyyət istiqamətləri ilə bağlı slaydlar nümayiş etdirilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğu 2018-ci il ərzində digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin, dövlət müstəqilliyimizin, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsinin təmin edilməsində fəallıq göstərib. Peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı cinayət hadisəsi qeydə alınmayıb, yetkinlik yaşına çatmayanlar tərəfindən cinayət hadisələri törədilməyib.

Prokuror bildirib ki, "Azərbaycan Respublikası Baş Prokurorunun "Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında" 27 iyun 2005-ci il tarixli əmrinin icrası ilə əlaqədar 2018-ci ildə prokurorluq orqanları tərəfindən görülmüş işlər barədə ictimaiyyətin məlumatlandırılması işinin vəziyyətinin ümumiləşdirilməsinə dair icmal məktub"da Naxçıvan Muxtar Respublikası Prokurorluğunun müsbət iş təcrübəsinin tabe qurumlarda yayılması məqsədəuyğun hesab olunub.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.



*Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyində keçirilən kollegiya iclasını giriş sözü ilə açan vergilər naziri, baş vergi xidməti müşaviri Azər Nağıyev bildirib ki, 2018-ci ildə muxtar respublikamızda biznes və investisiya sahəsində ciddi uğurlar qazanılıb, iqtisadiyyatın dinamik və davamlı inkişafının qorunub saxlanmasında muxtar respublikanın dövlət vergi orqanlarının da mühüm rolu olub.*

Vurğulanıb ki, iqtisadi inkişafın nəticəsi olaraq hesabat dövründə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi üzrə müəyyən olunmuş proqnoz 116,8 faiz icra edilib. Bu da 2017-ci illə müqayisədə 10,9 faiz çoxdur. Ümumilikdə, muxtar respublika üzrə daxil olmuş vəsaitlərin 34,5 faizi dövlət sektorunun, 65,5 faizi isə özəl sektorun payına düşür. Özəl sektor üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 6 milyon 394 min 700 manat və ya 15,4 faiz artıb.

Qeyd edilib ki, muxtar respublikamızda özəl sektorun, xüsusilə kiçik və orta sahibkarlığın fəaliyyətinin güclənməsi bu sahədə vergi daxilolmalarının əhəmiyyətli dərəcədə artımına səbəb olub. Buna görə də özəl sektordan vergi daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə Şərur rayonu üzrə 143,1 min manat və Babək rayonu üzrə 261,7 min manat artıb.

Bildirilib ki, kiçik və orta sahibkarlıq sahəsində sadələşdirilmiş vergi üzrə proqnoz 2 milyon 331 min manat və ya 71,7 faiz, yaxud ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 482 min manat və ya 36,2 faiz artıqlaması ilə icra edilib.

Diqqətə çatdırılıb ki, hesabat dövrü ərzində vergiödəyiciləri tərəfindən 28641 bəyannamə təqdim edilib. Bunun 28631-i və ya 99,9 faizi elektron formada olub. Vergilər üzrə proqnoz tapşırıqların yerinə yetirilməsində mühüm rolu olan aktiv vergiödəyicilərinin sayı (kənd təsərrüfatı istisna olmaqla) sahibkarlığa göstərilən qayğının və yaradılan işgüzar biznes şəraitinin nəticəsidir ki, 2017-ci illə müqayisədə 1,2 dəfə və ya 1007 vahid artıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrasından bəhs edən vergilər naziri bildirib ki, bu istiqamətdə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi ilə birlikdə tədbirlər davam etdirilib. Belə ki, 1 yanvar 2019-cu il tarixə muxtar respublikada fəaliyyət göstərən ticarət obyektlərində 1272 POS-terminal quraşdırılıb və bu istiqamətdə işlər davam etdirilir. Nağdsız əməliyyatların genişləndirilməsi tədbirlərinin nəticəsi olaraq hesabat dövründə POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız hesablaşmaların həcmi 35 milyon 93 min 350 manat olmaqla, ötən ilin müvafiq dövrü ilə müqayisədə 4 milyon 294 min 678 manat çox olub.

Bildirilib ki, sahibkarlıq subyektləri tərəfindən vergilərin vaxtında ödənilməsinə və ödənilən əməkhaqlarının reallığı əks etdirməsi vəziyyətinə nəzarətin gücləndirilməsi işləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə davam etdirilib. Nəticədə, işəgötürən fiziki şəxslər tərəfindən əməkhaqqından ödənilən gəlir vergisinin məbləği hesabat dövründə 133 min 154 manat olmaqla, 2017-ci illə müqayisədə 6504 manatdan çox artıb.

Sonra çıxış edən vergilər nazirinin müavini, baş vergi xidməti müşaviri Fərrux Əkbərov vergitutma sahəsində görülmüş işlərdən bəhs edərək bildirib ki, hesabat dövründə muxtar respublikada əhali ilə nağd pul hesablaşmaları aparan 1865 obyektdən 1857-də nəzarət-kassa aparatı quraşdırılması təmin edilib. Bu da nəzarət-kassa aparatı quraşdırılmalı olan obyektlərin 99,6 faizini təşkil edir. Ciddi hesabat blankı tətbiq edilməli olan 968 obyektin hamısında ciddi hesabat blankları tətbiq edilir.

Qeyd olunub ki, vergi borclarının alınması sahəsində nəzarətin daha da gücləndirilməsi nəticəsində hesabat dövrü ərzində muxtar respublika üzrə hesablanmış 2 milyon 320 min manat vergi borcunun ödənilməsi təmin edilib, 2019-cu il 1 yanvar tarixinə borc məbləğləri qalmayıb.

Sonra Naxçıvan Şəhər, Şərur və Babək Rayon Vergilər idarələrinin rəislərinin görülmüş işlərlə bağlı çıxışları olub.

**Xəbərlər şöbəsi**

# Ötən ilin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində 2018-ci ildə görülmüş işlər və qarşıda duran vəzifələr mövzusunda keçirilmiş kollegiya iclasında nazir Famil Seyidov çıxış edərək bildirib ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında muxtar respublikanın sosial-iqtisadi inkişafı, əldə edilmiş nailiyyətlər müzakirə edilib, qarşıya mühüm vəzifələr qoyulub.

Muxtar respublikanın ötənilki iqtisadi uğurlarından bəhs edən nazir qeyd edib ki, həyata keçirilmiş tədbirlər nəticəsində 2018-ci ildə iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi, yerli resurs və xammalla işləyən, ixracqabiliyyətli məhsullar istehsal edən müəssisələrin yaradılması istiqamətində tədbirlər görülüb, 49 istehsal və xidmət sahəsi istifadəyə verilib. 12 layihənin icrası isə davam etdirilir.

Vurğulanıb ki, həyata keçirilən tədbirlər nəticəsində hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir .

Qeyd olunub ki, 2018-ci ildə 411 milyon manatdan çox kənd təsərrüfatı məhsulları istehsal edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin arıçılığın və ailə təsərrüfatlarının inkişafı ilə bağlı imzaladığı müvafiq sərəncamların icrası istiqamətində 2018-ci ildə 14 ailə təsərrüfatına 253 min manat dövlət maliyyə dəstəyinin göstərilməsi, 210 ailə təsərrüfatının 6 mindən çox tara ilə təmin olunması, ailə təsərrüfatları və arıçılıq məhsulları festivallarının keçirilməsi təsərrüfatların fəaliyyətinin genişləndirilməsinə stimul olub, ailə təsərrüfatlarından bir qisminin isə kiçik sahibkarlıq subyektinə çevrilməsinə şərait yaranıb.

Nazir qeyd edib ki, bu istiqamətdə "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 2018-ci ildə görülən tədbirlər yerli məhsullarımızın daha geniş miqyasda tanıdılmasında mühüm rol oynayıb.

Özəl sektora dövlət dəstəyinin gücləndirilməsinə də toxunan Famil Seyidov bildirib ki, iş adamlarının iqtisadi və maliyyə resurslarına çıxış imkanlarının genişlənməsi məqsədilə 2018-ci ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 27 layihənin maliyyələşdirilməsinə 6 milyon 131 min manatdan çox güzəştli kreditlər ayrılıb, bu kreditlərin 5 milyon 420 min manatı sənayenin, 711 min manatdan çox hissəsi isə kənd təsərrüfatının inkişafına yönəldilib. Ümumilikdə, muxtar respublika üzrə 2000-ci ildən ötən müddət ərzində fond tərəfindən 1271 layihənin maliyyələşdirilməsinə 142 milyon 313 min manatdan çox vəsait yönləndirilib.

Qeyd olunub ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olması ilə bağlı verilmiş tapşırıqların icrası ilə əlaqədar muxtar respublikada fəaliyyət göstərən 14 müəssisənin istehsal etdiyi 40 çeşiddə 2800 ədəd hədiyyəlik məhsul və sənətkarlar tərəfindən 748 suvenir hazırlanaraq 12 obyektdə satışa çıxarılıb. Ümumilikdə, 2018-ci ildə 722 adda 12 min 905 manat dəyərində əl işi və sənət əsərlərinin sərgisi təşkil edilib, 316 adda 5000 manatdan çox dəyərində əl işlərinin satışı həyata keçirilib.

Bildirilib ki, 2018-ci ildə görülən işlər ixracyönümlü məhsulların istehsalının dəstəklənməsinə, investisiyaların cəlb edilməsinin stimullaşdırılmasına öz töhfəsini verib. Həmçinin dövlət dəstəyi ilə ötən ildə ölkə daxilində və xaricdə keçirilən beynəlxalq tədbirlərdə nazirlik əməkdaşlarının və sahibkarların təmsil olunması, 598 çeşiddə məhsulun 6 ölkədə sərgisinin təşkili ixrac potensialının genişlənməsinə, beynəlxalq təcrübənin öyrənilməsinə şərait yaradıb. Bütün bunların nəticəsində hazırda muxtar respublikadan 12 ölkəyə məhsul ixrac edilir. Bundan əlavə, 2018-ci ildə "Caspian European Club" tərəfindən "6-cı Beynəlxalq Caspian Energy Forumu"nun muxtar respublikada keçirilməsi ölkədaxili şirkətlərlə sıx əlaqələrin qurulmasına və biznes əməkdaşlığına əlverişli şərait yaradıb.

"Caspian European Club"un Azərbaycanın iqtisadi regionlarının illik investisiya reytinqində ən yüksək göstəricilərlə Naxçıvan Muxtar Respublikasının iqtisadi rayonlar arasında ikinci dəfə lider olduğunu da diqqətə çatdıran nazir iqtisadi inkişaf üçün yaradılmış münbit şəraitə və geniş imkanlara görə Ali Məclis Sədrinə minnətdarlığını bildirib.

Tədbir nazirlik əməkdaşlarının məruzə ətrafında çıxışları ilə başa çatıb.

* * *

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində keçirilən kollegiya iclasını nazir Rövşən Məmmədov açıb. Bildirib ki, muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli poçt, rabitə, internet və teleradio xidmətlərinin göstərilməsi 2018-ci ildə də davam etdirilib. Belə ki, il ərzində plan tapşırıqlara 110 faiz əməl olunub, tarif gəliri əlavə dəyər vergisiz 9 milyon 294 min 723 manat təşkil edib.



Qeyd olunub ki, ötən il iyulun 27-də Ordubad rayonu ərazisində Yeni Nəsil Telekommunikasiya Sisteminin və Ordubad şəhərində yeni tikilən Rabitə Evinin açılışı olub. Layihə çərçivəsində rayon ərazisində ümumi montaj tutumu 11 min 344 nömrə olan 35 ədəd yeni nəsil telefon sistemi qurulub, Naxçıvan-Babək-Culfa-Dəstə-Ordubad məntəqələri arasında 10 Gb/s tutumlu İP MPLS adlanan ən müasir çoxprotokollu kommutasiya şəbəkəsi yaradılıb. Naxçıvan və Şərur şəhərlərindəki əsas və ehtiyat idarəetmə mərkəzləri arasında 10 Gb/s tutumlu ikinci DWDM adlanan optik kanalların sıxlaşdırıcı avadanlığı qurulub. Sentyabrın 15-də isə İbadulla Radio-Televiziya Verici Stansiyasının yeni binası istifadəyə verilib.

Vurğulanıb ki, il ərzində 2198 ədəd yeni telefon nömrəsi istismara verilib. "Evədək optika" layihəsi çərçivəsində 30 fərdi mənzilə fiberoptik kabel xətti çəkilib və GPON avadanlığı quraşdırılıb.

Diqqətə çatdırılıb ki, ötən il Naxtel mobil operatoru abunəçilərinin sayı 60 mini ötüb. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən genişzolaqlı ADSL texnologiyası vasitəsilə il ərzində 7300-dən artıq yeni istifadəçi internetlə təmin olunub, əhali üzrə genişzolaqlı internet paylayıcı nöqtələrinin aktiv sayı 30 minə yaxınlaşıb. Eyni zamanda muxtar respublikada fəaliyyət göstərən 32 dövlət təşkilatının internet səhifələrində mətbuat xidməti bölməsi yaradılıb, "Elektron hökumət" portalında yenilənmə işləri davam etdirilib.

Nazir bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 2018-ci ilin mart ayından əmək pensiyalarının poçt məntəqələrində paylanmasına başlanılıb, 1 yanvar 2019-cu il tarixə poçt məntəqələrindən pensiya alanların sayı 330 nəfər olub.

Sonra işdə yol verilmiş nöqsanlara toxunulub, məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi 2018-ci ildə öz işini təsdiq edilmiş tədbirlər planına uyğun qurub, gənclər arasında bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olunması üçün məqsədyönlü tədbirlər həyata keçirib. Ümumilikdə, ötən ölkəmizin Gənclər Paytaxtı olan Naxçıvanda il ərzində nazirlik tərəfindən dövlət gənclər siyasəti və idman sahəsində 585 tədbir keçirilib. Bunlardan 255-i gənclərlə iş, 330-u isə kütləvi bədən tərbiyəsi və idman sahələrini əhatə edib.



Bu faktları Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin kollegiya iclasında nazir Azad Cabbarov səsləndirib. Nazir 10 dekabr 2018-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirədə verilmiş tapşırıqların yerinə yetirilməsinin vacibliyini vurğulayıb.

Bildirilib ki, 2018-ci ildə mütəmadi olaraq muxtar respublikanın şəhər və rayonlarında gənclərin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədilə vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib, onların tarixi yerlərə və muzeylərə gəzintiləri təşkil olunub. Nazirlik tərəfindən 2 fevral – Gənclər Günü və 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı gənclərin mükafatlandırılması məqsədilə tədbirlər keçirilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıqlarına əsasən Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən Kəngərli və Culfa Rayon Mərkəzi stadionları əsaslı təmir olunaraq istifadəyə verilib, məşqçilərə təlimlər, treninqlər, gənc idmançılara isə nümunəvi dərslərin keçilməsi diqqətdə saxlanılıb, bütün idman növləri və federasiyalar üzrə peşəkar və təcrübəli məşqçilər muxtar respublikaya dəvət edilib.

Ötən il ərzində ayrı-ayrı idman növləri üzrə muxtar respublika idmançılarının respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilib, idmançılarımız dünya çempionatlarında 2, Avropa çempionatlarında 3, beynəlxalq turnirlərdə 84, Yeniyetmələrin III Yay Olimpiadasında 1, Azərbaycan birinciliklərində 105 medal olmaqla, cəmi 195 medal qazanıblar. Ümumilikdə, Naxçıvan Muxtar Respublikasında 40 minə yaxın yeniyetmə və gənc idmanla məşğul olur, o cümlədən nazirlik tərəfindən keçirilən idman tədbirlərində 10 minə yaxın idmançı iştirak edib.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə Avtomobil Yolları Dövlət Agentliyinin birgə keçirdiyi kollegiya iclasını giriş sözü ilə komitənin sədri Hicran Rüstəmov açaraq bildirib ki, 2018-ci ildə komitənin xətti ilə 173 milyon 984 min 900 manatlıq inşaat işləri yerinə yetirilib. Bəhs olunan dövrdə muxtar respublikanın ali, orta ixtisas və orta ümumtəhsil məktəbləri üçün 10 binanın yenidən qurulması və tikintisi başa çatdırılaraq istifadəyə verilib.

Qeyd edilib ki, 2018-ci ildə Şərur rayonunun Ərəbyengicə, İbadulla, Babək rayonunun Aşağı Buzqov kəndlərində səhiyyə məntəqələri, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq və Naxçıvan şəhərindəki "N" hərbi hissəsinin xəstəxanaları üçün binaların yenidən qurulması başa çatdırılaraq istifadəyə verilib.

Bildirilib ki, 2018-ci ildə Babək qəsəbəsində 28 mənzilli yaşayış binasının tikintisi, Naxçıvan şəhəri, Nizami küçəsində 34, 36 və 38, Afiyəddin Cəlilov küçəsində 17, Əlincə məhəlləsində 2 və 9A, Zəroş Həmzəyeva küçəsində 1, 3 və 4, Əliqulu Qəmküsar küçəsində 2, Şərur rayonunda 7, Culfa şəhərində 30 və 32, Ordubad rayonunda isə 22 nömrəli yaşayış binalarının tikintisi və yenidən qurulması işləri başa çatdırılıb, digər yaşayış binalarında işlər davam etdirilir.

Kollegiya iclasında çıxış edən Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin direktoru Bəhruz Əsgərov bildirib ki, ötən il Şərur rayonunda asfalt-beton zavodunun quraşdırılması başa çatdırılıb, Naxçıvan-Şərur avtomobil yolunda cari təmir, muxtar respublikanın şəhər, rayon və kənddaxili avtomobil yollarında asfaltbeton, təmir-bərpa işləri görülüb.

Qeyd edilib ki, 2018-ci ildə muxtar respublikada ən böyük zavodun, saatda 240 ton yüksəkkeyfiyyətli asfalt istehsalına malik Asfalt-Beton Zavod Kompleksinin istifadəyə verilməsi agentlik tərəfindən daha geniş həcmdə işlərin aparılmasına imkan yaradıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində keçirilən kollegiya iclasını komitənin sədri Müslüm Cabbarzadə açaraq bildirib ki, muxtar respublikada torpaqların elektron uçotunun aparılması və təyinatı üzrə istifadə edilməsinə dövlət nəzarətinin gücləndirilməsi, daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının qeydiyyatı zamanı operativliyin təmin edilməsi 2018-ci ildə də diqqət mərkəzində saxlanılıb. Dövlət proqramına uyğun olaraq ünvan lövhələri və giriş nömrə nişanlarının quraşdırılması üçün Naxçıvan şəhərinin Heydər Əliyev prospektində və 26 küçədə ünvanların yenidən dəqiqləşdirilməsi işləri aparılıb, aşkar edilmiş uyğunsuzluqlar aradan qaldırılıb.

Qeyd olunub ki, ötən il əkin dövriyyəsinə daxil olan torpaqların tərkibinin öyrənilməsi, torpaqların və əkinlərin rayonlaşdırılması da diqqətdə saxlanılıb. Torpaqların qida maddələri ilə təminolunma kartoqramlarının hazırlanması işləri davam etdirilib, muxtar respublikanın rayonlarındakı 28 bələdiyyənin yeni kartoqramları hazırlanaraq aidiyyəti üzrə təqdim edilib. Bununla yanaşı, torpaq sahələrinin konturlarının dəqiqləşdirilməsi aparılıb, topoqrafik elementlərin, mühəndis-kommunikasiya xətləri və qurğularının, xüsusi qorunan ərazilərin, hidroqrafiya elementlərinin sərhədləri müəyyənləşdirilib. Hesabat dövründə muxtar respublika üzrə 20 min 591 daşınmaz əmlak obyekti plana alınıb.



Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən verilmiş tapşırıqların icrası məqsədi ilə Ağbulaq kəndində planaalma işləri aparılıb, 157 daşınmaz əmlak obyekti plana alınıb. Tikililərin kütləvi inventarizasiyasının aparılması və pasportlaşdırılması üçün ölçmə işləri başa çatdırılıb. Komitənin səyyar xidmət qrupu tərəfindən mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması və texniki sənədlərin hazırlanmasına başlanılıb.

Vurğulanıb ki, 2018-ci il ərzində muxtar respublika üzrə 2368 torpaq sahəsi, 48 qeyri-yaşayış binası, 59 qeyri-yaşayış sahəsi, 914 mənzil, 1978 fərdi yaşayış evi, 21 əmlak kompleksi olmaqla, cəmi 5388 daşınmaz əmlak obyekti qeydiyyata alınıb. Əvvəlki illə müqayisədə dövlət qeydiyyatına alınan daşınmaz əmlak obyektlərinin sayı 7,3 faiz artıb. Daxil olmuş müraciətlər əsasında 4056 texniki sənəd hazırlanıb. 5206 texniki sənədin parametrləri və həmin sənədlər haqqında digər məlumatlar Milli Qeydiyyat Sisteminə daxil edilib. Ümumilikdə, 2018-ci il ərzində muxtar respublika üzrə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 665 daşınmaz əmlak obyektinə ünvan verilib.

Sonra məruzə ətrafında müzakirələr olub.

**Xəbərlər şöbəsi**

# Ötən ilin yekunları müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində 2018-ci ildə görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirə olunduğu kollegiya iclası keçirilib.

Tədbiri giriş sözü ilə açan komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli qeyd edib ki, hesabat dövrü ərzində gömrük orqanları tərəfindən iqtisadi təhlükəsizliyin qorunması və hüquq-mühafizə fəaliyyətinin yerinə yetirilməsi, əhalinin keyfiyyətli idxal məhsulları ilə təmin edilməsi və daxili bazarın qorunması istiqamətində işlər davam etdirilib.

Vurğulanıb ki, dövlət qayğısı ilə əhatə olunan gömrük orqanlarında xidmətin modernləşməsi, iş şəraitinin daha da yaxşılaşdırılması diqqətdə saxlanılıb. Bu məqsədlə komitənin inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılıb, Sədərək sərhəd-keçid məntəqəsi üçün 18 hektara yaxın ərazidə beynəlxalq standartlara uyğun qurulan müasir gömrük kompleksinin inşası sürətləndirilib.

Qeyd olunub ki, il ərzində gömrük xidmətində iş prosesinin avtomatlaşdırılması və idarəetmənin təkmilləşdirilməsi xüsusilə diqqətdə saxlanılıb. 2017-ci ilin dekabr ayında Ali Məclis Sədrinin İran İslam Respublikasına rəsmi səfəri zamanı əldə olunmuş razılığa əsasən Culfa gömrük sərhəd-buraxılış məntəqəsi 24 saatlıq iş rejiminə keçib.

Vurğulanıb ki, gömrük orqanlarının fəaliyyətində səmərəliliyin artırılması, rəsmiləşmə prosesinin sürətləndirilməsi, işdə şəffaflığın təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yeni strukturu təsdiq olunub. İnkişaf etmiş dünya ölkələrinin praktikasına uyğun formalaşdırılan yeni struktur gömrük xidmətinin daha səmərəli şəkildə idarə olunmasına imkan yaradıb.

Qeyd edilib ki, gömrük orqanları tərəfindən büdcənin formalaşdırılması istiqamətində 2018-ci il üçün müəyyən olunmuş 7 milyon 800 min manatlıq proqnoz-tapşırığa 120,24 faiz əməl edilib. Hesabat dövrü ərzində büdcəyə köçürülmüş vergi və rüsumlar Naxçıvan Muxtar Respublikasının büdcə gəlirlərinin 10,86 faizini təşkil edib.

Komitə sədrinin müavini xarici ticarət əlaqələrinin genişləndiyini, ixrac potensialının gücləndiyini də önə çəkib. Qeyd olunub ki, hesabat dövründə 58 ölkə ilə ticarət əməliyyatları aparılıb, ixracın həcmi artıb. İxrac əməliyyatları, əsasən, Türkiyə Respublikası, İran İslam Respublikası, Gürcüstan, Rusiya Federasiyası, İraq və İtaliya ilə həyata keçirilib.

Diqqətə çatdırılıb ki, 2018-ci ildə gömrük sahəsində hüquqpozma hallarına qarşı mübarizə istiqamətində səylər artırılıb, əməliyyat-axtarış fəaliyyəti genişləndirilib. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı qeydə alınmış 12 cinayət faktı üzrə, ümumilikdə, 208,1 kiloqram heroin, 238,4 qram metanfetamin, 4,2 qram tiryək, 2,6 qram marixuana, 1,4 qram metadon, 0,5 qram tramadol, 0,04 qram klonazepam aşkarlanıb.

Bildirilib ki, muxtar respublika gömrük xidmətinin digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyəti də uğurlu nəticələr verib. Belə ki, həyata keçirilmiş 3 əməliyyat-axtarış tədbiri nəticəsində 38,4 qram həşiş qatranı, 17,9 qram tiryək, 9,5 qram marixuana, 100 ədəd psixotrop tərkibli dərman vasitələrinin gətirilməsinin qarşısı alınıb. Bu sahəyə tam nəzarət olunması üçün gömrük sərhəd-buraxılış məntəqələrində mülki dövriyyəsi məhdudlaşdırılmış dərmanların elektron bazası formalaşdırılıb. Muxtar respublika ərazisinə gətirilməsinə dair müvafiq icazə sənədi olmadığından vətəndaşlardan 62 min 251 ədəd psixotrop tərkibli dərman vasitəsi saxlanılıb.

İclasda vurğulanıb ki, yerli sahibkarların dəstəklənməsi üçün kənd təsərrüfatı məhsulları kütləvi çıxım dövründə analoji xarici malların təsirindən qorunub, yerli məhsulların bazar payı daim nəzarətdə saxlanılmaqla idxalın məhdudlaşdırılması həyata keçirilib. Gömrük orqanları tərəfindən xaricdən idxal istiqamətində gətirilən malların, o cümlədən qida məhsullarının keyfiyyətinə ciddi nəzarət olunub, 877 halda ekspertiza həyata keçirilib. Ekspertizası aparılmış mallardan 88 ton ərzaq və qeyri-ərzaq məhsulunun mənşəyi məlum olmadığından, həmçinin keyfiyyət göstəriciləri, o cümlədən markalanması və qablaşdırılması normalara cavab vermədiyindən muxtar respublika ərazisinə buraxılmayıb. Daxili bazarın və istehlakçıların hüquqlarının qorunması, o cümlədən gömrük qanunvericiliyinin tələblərinin pozulması hallarına görə il ərzində ayrı-ayrı vətəndaşlardan saxlanılmış ümumi çəkisi 11 tondan artıq ərzaq məhsulu və digər mallar isə yandırma üsulu ilə məhv edilib.

Kollegiya iclasında 2018-ci il ərzində görülmüş işlərlə əlaqədar məruzələr dinlənilib.

* * *



“Naxçıvanqaz” İstehsalat Birliyində keçirilən iclası birliyin direktoru Ramin İsmayılov açaraq bildirib ki, muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında təbii qaz təminatı mühüm yer tutur. Buna görə də abonentlərin dayanıqlı mavi yanacaqla təchizatı sahəsində ardıcıl tədbirlər görülür.

Diqqətə çatdırılıb ki, “Naxçıvanqaz” İstehsalat Birliyi Naxçıvan Muxtar Respublikasında 86 min 377 əhali abonentin, kommunal-büdcə təşkilatları üzrə 924, qeyri-dövlət təşkilatları üzrə 1403, sənaye üzrə 143 və enerji istehsal edən müəssisələr üzrə 2, ümumilikdə, 2472 qeyri-əhali abonentin təbii qazla təminatına xidmət göstərir. 2018-ci ildə 982 abonent, o cümlədən 862 əhali və 120 qeyri-əhali abonenti tərəfindən daxil olan müraciətlərə əsasən ev, mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb.

Qeyd olunub ki, qaz təsərrüfatı şəbəkəsində qaz analizatorlar və dedektorlar vasitəsilə 10 min 808 ədəd qaz sızması aşkarlanıb və sızmalar texniki istismar qaydalarına uyğun olaraq aradan qaldırılıb. Muxtar respublikanın şəhər, rayon qaz istismar idarələrinin qəza dispetçer xidmətlərinə istər əhali, istərsə də qeyri-əhali təbii qaz istehlakçıları tərəfindən daxil olan 14 min 659 çağırışa vaxtında gedilib, bütün işlər təlimata uyğun yerinə yetirilərək təhlükəsiz və fasiləsiz təbii qazın nəqli bərpa olunub.

Vurğulanıb ki, muxtar respublikada təbii qaz istehlakçılarının istismara yararsız qaz sayğacları istismardan çıxarılıb və yeni qaz sayğacları ilə təmin edilib. Əhali qrupdan olan abonentlərin mexaniki qaz sayğaclarının kənar müdaxilələrdən qorunması üçün 44 min 321 mühafizə qutusu quraşdırılıb.

Bildirilib ki, hesabat dövründə Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması davam etdirilib, 1 yanvar 2019-cu il tarixə, ümumilikdə, 17 min 525, o cümlədən 2018-ci ildə 950 smartkarttipli qaz sayğacı və mühafizə qutusu quraşdırılıb. Həmin qaz sayğaclarının diaqnostik müayinəsi, kompüter vasitəsilə test edilməsi və ortaya çıxan nöqsanların aradan qaldırılması üçün xidmət stansiyası təşkil olunub. Qazpaylayıcı stansiyaların ərazilərində bütün texniki avadanlıqların istismara yararlılıq vəziyyəti yoxlanılıb, aşkar olunan hər hansı bir texniki nasazlıq qısa müddət ərzində aradan qaldırılıb.

Qeyd olunub ki, yeraltı yüksək və ortatəzyiqli magistral qaz kəmərləri üzərində istismar olunan elektrokimyəvi mühafizə qurğularına (11 katod stansiyasına, 1 drenaj qurğusuna) nəzarət edilib, ardıcıl olaraq anod yataqları yoxlanılıb, kəmər boyu potensiallar fərqi nəzarətdə saxlanılıb, katod stansiyalarında qidalandırıcı transformatorlara xidmət göstərilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Naxçıvan-Bakı-Naxçıvan marşrutunda gecə reysləri fəaliyyətə başlayıb




***Yanvarın 10-da Naxçıvan şəhərindəki Avtovağzal Kompleksindən Naxçıvan-Bakı-Naxçıvan istiqaməti üzrə gecə reysinin açılışı oldu.***

Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin sektor müdiri Natiq Həsənov bildirdi ki, muxtar respublika sakinlərinin paytaxt Bakı şəhəri ilə əlaqəsinin daha da genişləndirilməsi və vaxt itkisinin azaldılması məqsədilə Naxçıvan-Bakı-Naxçıvan marşrutunda gecə reysi fəaliyyətə başlayıb. Avtobuslar hər gün saat $19^{30}$-da Naxçıvandan yola düşüb səhər saat $9^{00}$-da Bakıya çatacaq. Bakıdan isə avtobus saat $21^{00}$-da yola çıxacaq və növbəti gün səhər saat $10^{00}$-da Naxçıvan şəhərinə çatacaq. Biletin bir istiqamət üzrə qiyməti 25 manat təşkil edir. 5 yaşınadək uşaqlar üçün gedişhaqqı pulsuzdur. 5 yaşından 10 yaşınadək uşaqlar üçün isə biletin qiymətinin 50 faizi ödənilir. Biletləri muxtar respublikanın bütün avtovağzallarındakı kassalardan əldə etmək mümkündür. Bu gün ilk reyslə 10 sərnişin Bakı şəhərinə yola salınır.

Sərnişinlərin rahatlığı üçün müasir standartlara cavab verən geniş salonlu və rahat oturacaqlı avtobuslar xəttə buraxılıb. Eyni zamanda sərnişinlərin yolboyu çay və kofe ilə təmin olunması nəzərdə tutulub.

Avtovağzalda olarkən Bakıya yola düşən sərnişinlərə yaxınlaşıb fikirlərini öyrəndik.

Türkiyə vətəndaşı Yılmaz Özcan dedi: “İşimlə əlaqədar olaraq Bakı şəhərinə tez-tez gedib qayıdıram. Naxçıvandan Bakıya avtobusla gecə reysinin həyata keçirilməsi mənim kimi iş dalınca yollanan adamlar üçün həm vaxta qənaət, həm də rahatçılıq baxımından çox sərfəlidir. Çünki mən sabah səhər saatlarında Bakıya çatacağam, işlərimi yekunlaşdırdıqdan sonra istəsəm elə həmin axşam da Naxçıvana qayıda biləcəyəm. Avtobuslarda göstərilən xidmətlərdən də razıyam, əməyi olanlara minnətdarlığımı bildirirəm”.

Babək rayon sakini Rza İsmayılov qeyd etdi ki, ailəmlə birlikdə qohuməqrəbanın xeyir işində iştirak etmək üçün dəfələrlə Bakı şəhərinə getməli olmuşuq. Gündüz yola düşdüyümüz üçün gecəni harada qalacağıq, – deyə narahatçılıq keçirdiyim vaxtlar da az olmayıb. Ancaq indi tam arxayınam. Çünki bilirəm ki, sabah səhər Bakıya çatıb gündüz toyda iştirak edəcəyik, istəsək qalacağıq, istəməsək də axşam Naxçıvana qayıdacağıq. Bu reysin açılması bizim üçün həm vaxt qazanmaq, həm də istənilən zaman rahat yola çıxmaq baxımından çox sərfəli oldu. Yaradılan şəraitə görə ailəmiz adından dövlətimizə minnətdarlığımı bildirirəm.

Digər bir sərnişin, Naxçıvan şəhər sakini Ayxan İbrahimov da yeni açılan reysin yaratdığı geniş imkanlardan könül razılığı ilə danışdı. Bildirdi ki, əvvəllər Bakı şəhərinə həftə sonları gedərdim ki, vaxtında işimi bitirib geri qayıda bilim. Sözün düzü, gedişat çox vaxt planlaşdırdığım kimi olmurdu. Çünki axşam oraya yetişdiyimdən iş görmək üçün səhəri gözləməli olurdum. Beləcə, bir günümü hədər yerə sərf edirdim. Onu da qeyd edim ki, gecələr yola çıxmağın müsbət cəhətləri çoxdur. Həm yolüstü keçdiyin yerlərin gecə görüntüsü sənə xoş təsir bağışlayır, həm də avtobusda rahat şərait olduğundan yatıb dincələ də bilirsən. Səhəri günü də yorğun olmursan, ayıq başla işlərini həyata keçirirsən. Bizi düşünənlərə, bu imkanı yaradanlara minnətdarlığımı bildirirəm.

Yanvarın 11-də Bakı şəhərindən də ilk avtobus Naxçıvana yola salınmışdır.

**“Şərq qapısı”**

# *“Yalan”* tamaşası Ordubad rayon sakinlərinə təqdim edilib

***Kazım Ziya adına Ordubad Rayon Xalq Teatrı görkəmli yazıçı və dramaturq Sabit Rəhmanın “Yalan” komediyasını Ordubad Rayon Mədəniyyət Sarayında rayon ictimaiyyətinə təqdim edib.***

Komediyanın konfliktini dərin fəlsəfi köklü, ictimai mahiyyətli yalan kateqoriyası təşkil edir. Dramaturq əsərdə yalanın mahiyyətini ayrı-ayrı simvolik-realistik obrazlarla açır. Müəllif yalan dünyasını mücərrəd deyil, istehsalat prosesində, insanların fəaliyyətində və münasibətlərində ortaya çıxan real varlıq şəklində səhnəyə gətirir. 15-ə qədər personaj və obrazın iştirak etdiyi tamaşa maraqlı gülüşdoğuran vəziyyət və dialoqlarla zəngindir.

Xalq teatrının yeni tamaşasının rejissoru Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Günəş Ağayeva, quruluşçu rejissoru Nadir Məhərrəmov, rəssamı Hikmət Əliyev, musiqi tərtibatçısı Qasım Rəsulovdur.



Ordubad Rayon Xalq Teatrının yeni tamaşası rayon ictimaiyyəti tərəfindən maraqla qarşılanıb.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova və Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov kollektivi təbrik edib və uğurlar arzulayıblar.

**Əli RZAYEV**

***İtmişdir***

Naxçıvan şəhər sakini Tarverdiyeva Tovuz İsmət qızının adına olan 3118 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 29